BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№2 *Humanitar elmlər seriyası* 2014

UOT 94(479.24)

# XIX ƏSRİN II YARISINDA AZƏRBAYCAN ELMİNİN İNKİŞAFINDA İRƏVAN ZİYALILARININ ROLU

**B.O.KƏRİMOV**
***Bakı Dövlət Universiteti***
***babekkerimov@mail.ru***

*Məqalədə XIX əsrin II yarısında Azərbaycan elminin inkişafında xüsusi xidmətləri olmuş İrəvan ziyalılarının rolu araşdırılır. Dövrün mənbələri və tarixi ədəbiyyatın təhlilinə əsaslanaraq göstərilir ki, ümumilikdə Azərbaycan-müsəlman mədəniyyətinin bir parçası olan bu şəhərdə tarixi ənənələrlə yanaşı, XIX əsrin ortalarında kapitalizmin inkişafı ilə əlaqədar yaranmış müsbət meyllər də inkişaf etmişdir. Bu inkişaf ilk növbədə özünü artıq burada fundamental elmlərə marağın artmasında, müxtəlif elm sahələrində peşəkar səviyyədə çalışan mütəxəsislərin meydana gəlməsində göstərirdi. Bu meyllərin təsiri altında İrəvanda güclü ziyalı nəsilləri-Şahtaxtinskilər, Topçubaşovlar, İrəvanskilər yetişmişdi. Maraqlı fakt ondan ibarətdir ki, bu dövrdə Avropada ilk təhsil alan azərbaycanlı da məhz bu nəsillərin birindən-Şahtaxtinskilərdən çıxmışdı.*

**Açar sözlər:** İrəvan, elm, inkişaf, ziyalılar

XIX əsrin ortalarında ölkənin sosial-iqtisadi inkişafından irəli gələn maddi və mənəvi tələbat Azərbaycanda savadlı şəxslərin elmi-fəlsəfi maraq dairələrinin nəzərəçarpacaq dərəcədə dəyişməsinə və bu sahədə yeni meyarların meydana gəlməsinə səbəb olurdu. Artıq bu dövrdə yeni dünyəvi təlim müəssisələrinin meydana çıxması, qəza məktəbləri, gimnaziya və seminariyaların yaranması tədricən yeni ziyalı təbəqəsinin təşəkkülü ilə yanaşı, köhnə ziyalıların da mənəvi cəhətdən yeniləşərək yeni, müasir tipli ziyalıların formalaşmasına müsbət təsir göstərirdi. Qabaqcıl ziyalıların Avropa elmi mühiti ilə yaxından tanış olmaları Azərbaycanda ənənəvi elm sahələrinə yeni yanaşmanın formalaşması ilə yanaşı, dəqiq elmlərin də canlanmasına və inkişafına şərait yaradırdı.

Elm sahəsində yaranmış yeni meyllərə baxmayaraq, göstərilən dövrdə Azərbaycanda elmin və akademik elmi təfəkkürün inkişafı xeyli dərəcədə zəif gedirdi. Avropa elminin müsbət meyllərinin Azərbaycan elmi mühitinə daxil olması üçün M.F.Axundzadənin başladığı mübarizə Azərbaycan ziyalılarının yeni nəsli tərəfindən davam etdirilirdi. Azərbaycan ziyalılarının ictimai və

sosial fikri XIX əsrin son rübündə ideya və məzmunca daha da zənginləşmişdi. Azərbaycanın sosial-iqtisadi geriliyinin səbəblərini təhlil edən ziyalıların əksəriyyəti bunu əsasən elm və mədəniyyətin ləng inkişafında, dünyəvi təhsil ocaqlarının azlığında, despotizmdə və dini fanatizmdə görürdülər. Bu mövzu xüsusilə XIX əsrin 90-cı illərində Azərbaycanın geniş ziyalı dairələrinin qızğın müzakirə mövzusuna çevrilmişdi. Bu müzakirələrdə İrəvan mədəni mühitində xüsusi çəkiyə malik olan Firudin bəy Köçərli və İrəvan Müəllimlər seminariyasının yetirməsi olan Haşım bəy Vəzirov xüsusi rol oynayırdılar.

Görkəmli mütəfəkkir Firudin bəy Köçərli Azərbaycanda elmin, maarifin inkişafının ləng olmasının səbəblərini müxtəlif amillərlə izah edirdi. Müəllif göstərirdi ki, bunun əsas səbəbi müsəlman ruhanilərinin cahilliyində, pozğunluğunda, əsas vəzifələrini yaddan çıxarmalarında, müəyyən vaxt və konkret olaraq xalq üçün nəzərdə tutulmuş islamın mülki qanunlarının mütləqləşdirilməsindədir [10, II buraxılış, 106-109].

İrəvan Müəllimlər Seminariyasının yetirməsi olan H.Vəzirov vaxtaşırı olaraq öz məqalələrində göstərilən problemə toxunmuşdur. H.Vəzirov islam dinində mövcud olan təriqət və ayinlərini, xüsusilə şiə şəbihlərini, müridizm və babiliyi tənqid edərək onları təbliğ edən və yayanılara qarşı ciddi tədbirlərin görülməsini tələb edirdi [3]. Göründüyü kimi, XIX əsrin son rübündə İrəvan elmi mühitinin nümayəndələri əsası M.F.Axundzadə tərəfindən qoyulmuş ideyaların təsiri altında idilər. Xüsusilə, M.F.Axundzadənin fəlsəfi görüşləri digər Azərbaycan ziyalıları kimi İrəvan ziyalılarına da mühüm təsir göstərmiş, onların fəlsəfəyə baxışlarında köklü dəyişikliklər yaratmışdı. M.F.Axundzadə göstərirdi ki, fəlsəfə "təbiətin qanunlarına uyğun olaraq bütün şeylərin məqsədəuyğun şəkildə qurulmasının səbəbini müəyyənləşdirən elm, daha doğrusu, maddi dünyanın "qanunları" və "səbəbləri" haqqında bilikdir" [1, 152]. Bu Azərbaycan mütəfəkkirlərinin fəlsəfəyə ənənəvi yanaşmalarına ciddi zərbə vurmuş və ziyalıların yeni fəlsəfi dünyagörüşlərinin formalaşmasına mühüm təsir göstərmişdi. Bu ideyaların təsiri altında yeni fəlsəfi dünyagörüşünün daşıyıcısı kimi İrəvan ziyalıları içərisində F.Köçərli çıxış etmişdi. Yeni dövrün tələbatına, millətin ehtiyaclarına biganə qala bilməyən F.Köçərli bədii tərcümə ilə yanaşı elmi tərcümə ilə də məşğul olurdu. F.Köçərli dahi yunan filosofu Sokratı doğma dilimizə çevirmiş və onu 1891-ci ildə "Təlimati Soqrat" adı altında Baxçasarayda çap etdirmişdi [9]. Bu, həmin dövrdə fəlsəfə elmi sahəsində atılmış mühüm addım idi. Xüsusilə, antik fəlsəfənin mühüm incilərindən birinin dilimizə tərcümə edilməsi ziyalılarımızın fəlsəfi dünyagörüşünə mühüm təsir göstərən amil olmaqla yanaşı, Azərbaycan fəlsəfə elmi tarixində mühüm addım kimi qiymətləndirilə bilər.

F.Köçərli İrəvan Gimnaziyasında dərs deyərkən İrəvan mədəni mühitinin köhnə ənənələrdən uzaqlaşması, yeni müasir elmi dünyagörüşünün formalaşması uğrunda mübarizə aparırdı. Yeni dünyagörüşünün yayılması qarşısında xüsusilə cəhalətpərəst din xadimləri dururdular. İrəvana gəldikdə mühitlə yaxından tanış olan F.Köçərli öz təəssüratlarını belə bölüşürdü: "İrəvan

ülәmaları çox geridә qalmış, onlar o dәrәcәdә cәhalәtә qapılıblar ki, hәtta "Tәrcüman" qәzetini oxumağı, mühәriri sünni olduğu üçün qadağan edirlәr. Bu korlar başa düşmürlәr ki, inkişaf üçün nәinki Şәrqdәn, hәtta xristian Qәrbindәn dә kitab, qәzet gәtirmәk vacibdir" [13]. Tәbii ki, müәllifin bu sәtirlәri ruhanilәr tәrәfindәn qәzәblә qarşılanmış vә o tәqiblәrә, böhtanlara mәruz qalmışdı.

XIX әsrin ortalarında İrәvanda elmin inkişaf sәviyyәsindәn danışarkәn bu prosesin iki mühüm isiqamәtdә getmәsini görmәk olar. Bu istiqamәtlәrdәn birincisi әnәnәvi elmi-teoloji istiqamәt olmuşdur ki, bu sahәdә әsasәn ruhanilәr fәaliyyәt göstәrmişlәr. Elmi-teoloji istiqamәt çәrçivısindә öyrәnilәn elmә әnәnәvi sahәlәr-fәlsәfә, mәntiq, әxlaq, fiqh vә s. daxil idi. Bütün müsәlman Şәrqindә olduğu kimi, İrәvan elm mühitindә әnәnәvi elmlәrinin öyrәnilmәsi ilә әsasәn müsәlman ruhanilәri-şiә-müsәlman alәmindә müctәhid adlanan ruhanilәr mәşğul idilәr. İrәvanın ruhani ziyalıları içәrisindә dövrün mәşhur ülamәlәrindәn olmuş, eyni zamanda incә ruhlu şeirlәrin müәllifi kimi tanınmış Fazil İrәvaninin xüsusi yeri olmuşdur. 1782-ci ildә İrәvan şәhәrindә anadan olmuş Fazil İrәvani ilk tәhsilini әnәnәvi molla mәktәbindә almış, 20 yaşında Qahirәyә gedәrәk buradakı mәşhur "Әl-Әzhәr" mәdrәsәsindә tәhsil almışdır. İsfahan vә Tәbriz şәhәrlәrindә axundluq edәn F.İrәvani doğma şәhәrinә qayıtdıqdan sonra Göy mәscidin axundu olmuş vә bu illәrdә müctәhid rütbәsi almışdır. 1843-cü ildә Qafqaz müsәlmanları Şiә Ruhani idarәsi sәdrinin müavini, 1846-cı ildә isә şeyxülislam olmuşdur [7, 21].

Müәllifin islam dininin qayda-qanunlarına dair fars dilindә yazdığı dini-fәlsәfi әsәri "Kitabi-tәharәt" ("Paklıq kitabı") әsәridir. Bu әsәr 1883-cü ildә Molla Әhmәd Kuzәkunaninin tapşırığı ilә Hacı Mәhәmmәd Mehdi Kuzәkunani tәrәfindәn Tәbrizdә daşbasması üsulu çap olunmuşdur [2]. Müәllif әsәrindә elmi-dini fikirlәrini poetik dillә әks etdirmişdir. Bu, Azәrbaycan elmindә Hәqiri, Füzuli, Rәhmәti vә Xәtai әnәnәlәrinin davamı hesab edilә bilәr.

Bundan başqa F.İrәvaninin "Kitab-ul bey-ül istidlali", "Ehkam-ül-xәlәl fil-sәlavәt", "Әl mәkasib-ül mәhәrrәmә", "Hicceyәt-i zәn", "Әmr vә nәhy ictimada risalәsi", "Әllamә qaidәlәrinә әlavә", "Beyzәvi tәfsirinә haşiyә", "Risale-yi elmiyyә adlı dini-fәlsәfi әsәrlәri qalmışdır [8, 219]. Müәllifin bütün bu әsәrlәri islam ayinlәrinin, qayda-qanunlarının şәrhinә hәsr edilmiş, şiә tәriqәtinin әsasları izah edilmişdir.

Mühacirәt etmiş İrәvan ziyalılarının bir çoxu qonşu İranda fәaliyyәt göstәrmişlәr. Bu ziyalılar Rusiya-İran müharibәlәri nәticәsindә vәtәni tәrk etmәk mәcburiyyәtindә qalmışlar.

İrәvanın görkәmli ziyalılarından biri Hacı Mirzә Ağasi adı ilә mәşhur olan Hacı Mirzә Abbas olmuşdur. 14 yaşınadәk İrәvanda yaşamış Hacı Mirzә Ağasi tәhsil almaq üçün Kәrbәlaya getmiş, tәhsil alıb geri qayıtdıqdan sonra Qacarlar taxtının vәliәhdi Abbas Mirzәnin yanında xidmәt etmiş vә onun oğlunun – gәlәcәk Qacar hökmdarı Mәhәmmәd şahın müәllimi, onun hakimiyyәti dövründә isә 13 il sәdr-әzәm (baş nazir-müәllif) olmuşdur [8, 227]. Görkәmli şair kimi fәaliyyәt göstәrәn Hacı Mirzә Ağasi hәm dә dini

məzmunlu risalələri ilə tanınmışdır. Müəllifin indiyədək 4 belə risaləsi aşkar edilmişdir. Xüsusilə, müəllifin "Sultanlığın 40 fəsli" və "Kəlmələr" adlı risalələri məşhurdur.

"Sultanlığın 40 fəsli" risaləsi Müqəddimə, Əxlaq, Fəlsəfə və Ürfan adlı fəsillərdən ibarətdir. Ürfani üslubda yazılmış "Kəlmələr"də isə peyğəmbərlik və imamlığın vacib şərtlərindən bəhs edilir, xalq idarəçiliyində düzgün mülahizənin vacibliyi vurğulanır.

İranda fəaliyyət göstərmiş əslən irəvanlı ziyalılardan biri də görkəmli diplomat olan Ürfə-u dövlə Mirzəxan Daniş olmuşdur. İlk təhsilini Təbrizdə alan Daniş İstanbula getmiş, burada ingilis və fransız dillərini öyrəndikdən sonra Tiflisdəki İran konsulluğunda tərcüməçi işləmişdir. Daniş müəyyən mənada M.F.Axundzadənin maarifçi ideyalarının təsiri altında olmuş, onun əlifba sahəsində irəli sürdüyü radikal təkliflərin tərəfdarı kimi çıxış etmişdi. Bu baxımdan Danişin 1896-cı ildə çap etdirdiyi ərəb əlifbasının qüsurlarından və onun dəyişdirilməsindən bəhs edən "Risale-ye roşdiyyə" əsəri [8, 233] xüsusilə diqqətəlayiqdir.

Daniş 1899-cu il Haaqa konfransında İran nümayəndəsi kimi iştirak etmiş və dünya ölkələrini sülhə və əməkdaşlığa səsləyən "Sülh" məsnəvisi yazaraq onu dövlət başçılarına göndərmişdi. Bundan başqa, müxtəlif mövzulara dair, türk, fars və fransız dillərində ondan artıq risalə çap etdirən Danişə Belçikanın Lion Universitetinin Şərq ədəbiyyatı doktoru adı verilmişdi [8, 234].

Əslən İrəvanlı olub, İranda yaşayıb-yaratmış məşhur ruhani ziyalılardan olan Mirzə Əbülqasim 1809-cu ildə İrəvan şəhərində dünyaya göz açmış, İsfahan şəhərində təhsil almışdı. Mirzə Əbülqasim ədəbiyyat, şəriət, fiqh sahəsində geniş biliyə malik olmuş, həmçinin tibb elminin də mahir bilicisi kimi tanınmışdır. Lakin müəllif əsasən dini elmlərin öyrənilməsi ilə məşğul olmuşdur. Onun fikrincə, fəqihlik daha vacib iş idi [8, 222]. Müəllif Qacar dövlət xadimləri tərəfindən yüksək qiymətləndirilmiş, xüsusilə Abbas Mirzə ona məxsusi ehtiram bəsləmişdir. Onun fikir və mülahizələri İranın məşhur alimləri tərəfindən də yüksək qiymətləndirilmişdir.

Qeyd etmək lazımdır ki, XIX əsrin ikinci yarısında əsasən ənənəvi dini elmlərə üstünlük verən irəvanlı elm xadimləri İrəvandan kənarda, xüsusilə İranda geniş fəaliyyət göstrirdilər. İranda fəaliyyət göstərən ziyalıların əsasən dini biliklərə üstünlük verməlırini bu dövrdə İranın özündə fundamental elmin inkişaf etməməsi ilə əlaqələndirmək olar.

Artıq XIX əsrin ortalarında mədəniyyətdə yaranmış müsbət meyllər elm sahəsinə də sirayət etmiş və bu meyillərin təsiri altında İrəvan ziyalıları arasında da fundamental, müasir elmin daşıyıcıları olan yeni ziyalılar nəsli yaranmışdı. Bu, İrəvan elm mühitinin inkişafının ikinci-fundamental istiqaməti idi.

İrəvan ziyalılarının dünyəvi elmlər sahəsində mühüm uğur əldə etmiş alimlərindən danışarkən ilk növbədə İsasultan Şahtaxtinskinin adını çəkmək lazımdır. 1851-ci ildə İrəvanda zadəgan ailəsində anadan olan İsasultan Şahtaxtinski Tiflisdə D.Kipiani pansionunda oxumuş, 1871-ci ildə real gim-

naziyanı bitirmişdir. Peterburqda Əkinçilik İnstitunda oxuyan İ.Şahtaxtinski Paris və Londonda iki il siyasi iqtisada, Sürixdə isə təbiətşünaslığa dair mühazirələrə qulaq asmışdır. Xüsusilə, təbiət elmlərinin öyrənilməsinə maraq göstərən İsasultan Şahtaxtinski tədqiqat mövzusu olaraq elə bu sahəni seçmişdir. İ.Şahtaxtinski 1875-ci ildə "Təbiət və cəmiyyətin inkişafında meşənin rolu" mövzusunda magistr dissertasiyasını uğurla müdafiə etmişdir [4].

Müəllifin bu əsəri həmin dövr Azərbaycan elmində irəliyə doğru atılmış mühüm bir addım olmuşdur. Mübahisəsiz olaraq demək olar ki, İ.Şahtaxtinski Azərbaycanda dendrologiya (nəbatət elmi-müəllif) elminin əsasını qoymuş ilk tədqiqatçıdır. Tədqiqatçının əsərinin mövzusuna və əhəmiyyətinə əsaslanaraq mübaliğə etmədən qeyd etmək olar ki, H.Zərdabi ilə eyni zamanda İ.Şahtaxtinski həm də Azərbaycan elmində təbiətin mühafizəsi probleminin əsasını qoymuş ilk tədqiqatçı olmuşdur. Dövrümüz üçün səciyyəvi olan ekoloji problemlərin elmi cəhətdən XIX əsrdə işıqlandırılması Azərbaycan elmində ekoloji problemlərin öyrənilməsində ilk addım, bu sahədə ilk qaranquş idi.

İ.Şahtaxtinskinin elmi fəaliyyəti təkcə təbiət elmlərinin öyrənilməsi ilə məhdudlaşmayıb, siyasət və tarix kimi sahələri də əhatə edirdi. Belə ki, İ.Şahtaxtinski 1875-ci ildə Avropadan Tiflisə qayıtdıqdan sonra "Tiflisskiy vestnik" qəzetində siyasi məsələlər şöbəsinin müdiri vəzifəsində çalışmışdır. Bu illər ərzində topladığı zəngin bilik və təcrübə əsasında siyasət və tarixə dair bir sıra məqalələr çap etdirmişdir.

İ.Şahtaxtinski 1877-ci ildə "Kavkazskiy almanax" adlı məcmuə nəşr etdirmiş və vaxtaşırı olaraq burada elmi məqalələrlə çıxış etmişdir. Almanaxda Qafqazın coğrafiyası, inzibati-ərazi bölgüsü, dövlət idarələri, maarif işçiləri haqqında qiymətli məlumatlar dərc edilmişdir. İ.Şahtaxtinskinin siyasi və tarixi məsələlərə həsr etdiyi "Şərq böhranı" adlanan sanballı məqaləsi də məhz "Almanax"ın səhifələrində dərc edilmişdir. Müəllif burada Şərq böhranı anlayışı, Böyük dövlətlərin bu məsələyə münasibəti, Osmanlı dövlətinin vəziyyəti kimi tarixi-siyasi problemlərə öz mövqeyini bildirmişdir.

İ.Şahtaxtinski 1880-ci ildən etibarən Qarsda inzibati idarədə məmur və hərbi quberniya idarəsində dəftərxana müdiri işləmiş, bu dövrdə rus dilində nəşr edilən "Kars" qəzeti ilə əməkdaşlıq etmiş, həmin qəzetə əlavə olaraq gündəlik teleqraf bülleteni buraxmışdır. İ. Şahtaxtinski 1894-cü ildə vəfat etmişdir [4].

Şahtaxtinskilər nəslinin görkəmli nümayəndələrindən biri də M.Şahtaxtinski olmuşdur. Tiflis gimnaziyasını bitirən M.Şahtaxtinski Leypsiq Universitetinin fəlsəfə, hüquq və tarix fakültəsinə daxil olmuşdur. M.Şahtaxtinski ərəb, fars, alman, fransız, rus dillərini mükəmməl bilirdi. Tədqiqatçının ilk işi xarici ölkə alimlərinin diqqətini cəlb etmiş, 1898-ci ildən etibarən Parisdə Şərq xalqlarının dillərini tədqiq edən nəhəng elmi mərkəzdə bu problemlərin öyrənilməsi ilə məşğul olmuşdur. Fransanın elm ictimaiyyəti tərəfindən elmi fəaliyyəti yüksək qiymətləndirilən M.Şahtaxtinski Avropanın ən nüfuzlu təhsil müəssisələrindən hesab edilən Sarbonna Universitetinə müəllim kimi dəvət

edilmişdir [6, 144]. M.Şahtaxtinski Azərbaycan elmini Avropa miqyasına çıxaran, onu Avropada layiqli şəkildə təmsil edən görkəmli tədqiqatçı idi.

XIX əsrin ikinci yarısı, xüsusilə bu əsrin sonuncu rübü İrəvanda humanitar elmlərin də inkişafı ilə müşayət olunmuşdur. Bu baxımdan Azərbaycanın qədim folklor nümunələrinin toplanması və nəşr edilməsi daha mühüm əhəmiyyət daşıyırdı. İrəvan azərbaycanlılarının folklor nümunələrinin toplanmasında heç şübhəsiz F.Köçərlinin mühüm rolu olmuşdur. Bu nümunələr görkəmli tədqiqatçının "Seçilmiş əsərləri"ndə nəşr edilmişdir.

Qafqaz Rusiya tərəfndən işğal edildikdən sonra imperiya dairələri diyarın öyrənilməsi işini təşkil etmiş və bu məqsədlə bir sıra elm müəssisələri açılmış, məcmuələr nəşr edilmişdir. Bu baxımdan XIX əsrdə nəşr edilən məcmuələr içərisində Qafqaz tədris dairəsi tərəfindən nəşr edilən "Qafqaz əraziləri və tayfalarının təsvirinə dair materialların toplusu" (SMOMPK ) adlı məcmuənin xüsusi əhəmiyyəti vardır. Ölkəşünaslıq səciyyəsi daşıyan məcmuənin səhifələrində şifahi xalq ədəbiyyatı nümunələri üçün də geniş yer verilmişdir. Toplu folklorun müxtəlif janrlarında yaranmış nümunələrə geniş yer verməklə yanaşı, ayrı-ayrı xalq qəhrəmanları haqqında nağıl, əfsanə və rəvayətlərin təbliğinə də çalışırdı. Qafqaz tədris dairəsi tabeliyində olan və diyarın müxtəlif bölgələrində çalışan müəllimlərin vasitəsilə xalq ədəbiyyatı nümunələrini toplayıb nəşr etdirmişdir.

İrəvanda müəllim işləyən Mirhaşım Vəzirovun topladığı folklor nümunələri SMOMPK məcmuəsində də nəşr edilmişdir. Məcmuənin 1890-cı il 9-cu burxılışında Mirhaşım Vəzirov Azərbaycan xalqı arasında geniş yayılmış cin, şeytan, div və digər qeyri-insani varlıqlar, külək, zəlzələ, ay və günəşin tutulması ilə bağlı rəvayətlər haqqında qiymətli məlumatlar vermişdir [11, IX bur., 103-112].

İrəvan azərbaycanlılarının folklor nümunələrinin toplanmasında Məhəmmədvəli Qəmərlinin də mühüm rolu olmuşdur. Müəllifin xidməti ondan ibarətdir ki, o, topladığı materialları ayrıca kitab halında nəşr etmiş və geniş oxucu kütləsinə təqdim etmişdir [5]. Bu Azərbaycan folklorunun kitab şəklində nəşr edilən ilk nümunələrindən hesab edilə bilər.

İrəvan müsəlmanlarının müxtəlif adət-ənənələri və inancları haqqında SMOMPK məcmuəsində nəşr edilən məqalələrdən biri də burada müəllim işləmiş Rəhim Xəlilova məxsusdur. Müsəlmanların dini adət-ənənələrinə həsr etdiyi məqaləsində müəllif əsasən şiələr arasında geniş yayılmış və aşura mərasimi ilə bağlı olan şəbih tamaşalarını təsvir etmişdir. İslam dininin yaranması, yayılması və xilafətin meydana gəlməsini təhlil edən müəllif ziddiyyətlər nəticəsində iki təriqətin-sünni və şiəliyin meydana gəlməsini göstərir. Aşura mərasiminin əsasında Kərbəla hadisəsinin durduğunu göstərən müəllif məqalədə hadisənin təbliğatçıları-mərsiyəxanlar, hadisələrin səhnələşdirilməsi və sair bu kimi məsələləri şərh etmişdir [12, buraxılış XXV, 161-188]. Bu həm irəvanlıların folkloru, həm də etnoqrafiyası haqqında qiymətli məlumatları və fikirləri özündə əks etdirən əvəzsiz məxəzdir.

XIX əsrin ikinci yarısı İrəvan elm mühitinin tədqiqi göstərir ki, ümumilikdə Azərbaycan-müsəlman mədəniyyətinin bir parçası olan bu şəhərdə ənənələrlə yanaşı, XIX əsrin ortalarında kapitalizmin inkişafı ilə əlaqədar yaranmış müsbət meyllər də inkişaf etmişdir. Bu inkişaf, ilk növbədə, özünü artıq burada fundamental elmlərə marağın artmasında, müxtəlif elm sahələrində peşəkar səviyyədə çalışan mütəxəssislərin meydana gəlməsində göstərirdi. Bu meyllərin təsiri altında İrəvanda güclü ziyalı nəsilləri – Şahtaxtinskilər, Topçubaşovlar, İrəvanskilər yetişmişdi. Maraqlı fakt ondan ibarətdir ki, bu dövrdə Avropada ilk təhsil alan azərbaycanlı da məhz bu nəsillərin birindən - Şahtaxtinskilərdən çıxmışdı.

Müsəlman mədəniyyətinin mərkəzlərindən biri olmuş və olmaqda davam edən İrəvanda ənənəvi elm sahələri ilə yanaşı, həm də fundamental elmlərin inkişafı dövrün tələbatından irəli gəlirdi. Bu sahənin yaranmasında və inkişaf etməsində dövrün mədəni ab-havası ilə yanaşı, İrəvanda açılmış yeni tipli məktəblərin və orada çalışan maarifpərvər pedaqoqların, ziyalıların da mühüm xidməti olmuşdur.

**ƏDƏBİYYAT**


1. Ахундов М.Ф. Избранные произведения. Баку: Элм, 1982, 421 с.
2. Kitabüt-təharət. Müəllifi Fazil İrəvani. Xəttat: Məhəmməd ibn Əli Məhəmməd Təbrizi. Təbriz. 1301, 186 s. (fars dilində)
3. «Kaspi» qəz., 1892, 1 may
4. Газ. «Кавказ», 1894, 7 ноября
5. Qəmərli V. Atalar sözü. İrəvan: Edilson, 1899, 52 s.
6. Гусейнова Д.С. Азербайджанская интеллигенция в конце XIX - начале XX в. Диссертация на соискание степени доктор исторических наук. На правах рукописи. Баку, 1993.
7. Məmmədov İ. İrəvan dəftəri. İctimai fikir tariximizin qəribsəyən üfüqləri. Bakı: Adiloğlu, 2002, 210 s.
8. Sərdariniya S. İrəvan müsəlman yurdu olmuşdur. Tehran: Zofa, 2001, 245 s. (fars dilində)
9. Sokrat.Təlimati Soqrat. Rus dilindən tərcümə edəni İrəvan gimnaziyasının elmi-ilahiyyat müəllimi Firidun Köçərli. Tərcüman: Baxçasaray, 1891, 90 s
10. Сборник материалов для описания местностей и племен Кавказа (СМОМПК). Вып. 2, Тифлис, 1890
11. СМОМПК, вып. 9. Тифлис, 1890.
12. СМОМПК, вып. XXV, Тифлис, 1898.
13. Tərcüman, 1885, 28 yanvar, №6

## РОЛЬ ИРЕВАНСКОЙ ИНТЕЛЛИГЕНЦИИ В РАЗВИТИИ АЗЕРБАЙДЖАНСКОЙ НАУКИ ВО II ПОЛОВИНЕ XIX ВЕКА

**Б.О.КЕРИМОВ**

### РЕЗЮМЕ

В статье рассмотрена роль иреванской интеллигенции, имевшей особые заслуги в развитии азербайджанской науки во II половине XIX века. На основе анализа источников того периода и исторической литературы показано, что в этом городе, являющемся частью азербайджанской и вообще всей мусульманской культуры, наряду с историческими традициями, в середине XIX века развивались и положительные тенденции, появившиеся в связи с развитием капитализма. Это развитие проявляет себя здесь, в первую очередь, в повышении интереса к фундаментальным наукам, появлением высококвалифицированных специалистов, работающих в различных областях науки. Под влиянием этих тенденций в Иреване росло сильное поколение интеллигенции – Шахтахтинские, Топчубашевы, Иревансике. Самое интересное состоит в том, что первый азербайджанец, получивший в этот период образование в Европе, был представителем именно одного из этих родов – шахтахтинских.

**Ключевые слова:** Иреван, наука, развитие, интеллигенция

## THE ROLE OF IREVAN INTELLECTUALS IN THE DEVELOPMENT OF AZERBAIJANI SCIENCE IN THE II HALF OF the XIX CENTURY

**B.O.KERIMOV**

### SUMMARY

In the article it is researched the role of Irevan intellectuals of Azerbaijani science in the second half of the nineteenth century. Based on an analysis of historical sources and literature of the period shows that, in general, being a part of the Muslim culture, in this city, along with the development of capitalism in the mid-nineteenth century, the positive trends have developed. It is fundamental to the development of science itself in increasing the interest in the first place, was the formation of specialists working in various fields of science at the professional level. Under the influence of these trends there were powerful noble clans-Shahtakhtinskis, Topchubashovs, Irevansks in Irevan city. An interesting fact is that Azerbaijani studying in Europe first time was this generation, from Shakhtakhtinski.

**Key words**: Iravan, science, development, intellectuals